# COP29 çərçivəsində "İqlim investisiyaları: Öhdəliklər, yanaşmalar və regionlara xas problemlər" mövzusunda tədbir keçirilib

Noyabrın 14-də Bakıda COP29 çərçivəsində "İqlim investisiyaları: Öhdəliklər, yanaşmalar və regionlara xas problemlər" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Türkiyə Prezident Administrasiyasının Maliyyə İdarəsi tərəfindən təşkil olunub.

Tədbirin moderatoru, Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək, iştirakçılara yeni perspektivlər və təcrübələr təqdim etməyin vacibliyini vurğulayıb. O diqqətə çatdırıb ki, bu tədbir yalnız iqlim investisiyaları sahəsindəki yanaşmalar və öhdəliklərə dair müzakirələrə zəmin yaratmır, həm də regionlara xas problemlərin aradan qaldırılması üçün konkret addımların atılmasına yönləndirir.

SOCAR-ın ətraf mühit üzrə vitse-prezidenti Əfqan İsayev çıxışında neft və qaz sənayesinin iqlim dəyişikliyi ilə mübarizəyə qoşulmasının və təmiz enerjiyə keçid məsələlərinin vacibliyini vurğulayıb. O, həmçinin enerji keçidinin və davamlı maliyyə gücləndirilməsinin əhəmiyyətini qeyd edib.

TOGG-un Baş icraçı direktoru Mehmet Gürcan Karakaş avtomobil sənayesində, xüsusilə elektrikli nəqliyyat vasitələrinin istehsalında iqlim investisiyalarının rolundan danışıb. Eyni zamanda, karbon emissiyalarının azaldılması və təmiz texnologiyalar üçün töhfə verməyi hədəfləyən innovativ layihələrdən söz açıb.

"Bloomberg New Energy Finance"nin baş icraçı direktoru Jon Moore isə qlobal enerji bazarlarında iqlim keçidi risklərinin necə idarə edildiyi və bu sahədəki imkanların necə inkişaf etdiyi barədə məlumat verib. O, iqlim investisiyalarının uğurlu idarə olunmasının iqtisadiyyatın müxtəlif sahələrinə müsbət təsir göstərəcəyini vurğulayıb.

Tədbirdə sənayeləşmə, təmiz texnologiyalar və davamlı maliyyə dəstəyi kimi məsələlər müzakirə olunub. Bu məsələlərin həlli üçün kompleks yanaşmaların və regional xüsusiyyətlərin nəzərə alınmasının vacibliyi vurğulanıb.

**AZƏRTAC**
**2024, 14 noyabr**